Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

15 DEKABR
2022-Cİ İL
№ 023 (170)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## UKRAYNADA 33 GÜRCÜ DÖYÜŞÇÜ HƏLAK OLUB



Rusiya-Ukrayna müharibəsində indiyə kimi 33 gürcü döyüşçü həlak olub. Bu barədə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bildirib.

O, son bir neçə gün ərzində 6 gürcü döyüşçünün Ukraynada həlak olduğunu qeyd edib.

“Əlbəttə, bu, ölkəmiz üçün böyük itkidir. Mən həlak olanların ailələrinə, qohumlarına və bütün Gürcüstana başsağlığı verirəm”, - deyə spiker jurnalistlərə açıqlamasında bildirib.

Qeyd edək ki, Ukraynada döyüşlərdə həyatını itirənlər arasında Gürcüstan vətəndaşları ilə yanaşı Gürcüstan əsilli Ukrayna vətəndaşları da var.

Əslən Bolnisi rayonunun Faxralı kəndindən olan 1993-cü il təvəllüdlü Bayramov Ruslan Hüseynqula oğlu da onlardan biridir. Luqansk vilayətində yaşayan Ruslan Bayramov Ukrayna Silahlı Qüvvələrinin 59-cu radio-kəşfiyyat taqımı filialının operatoru kimi xidmət edib.

O, oktyabrın 6-da Nikolayev vilayətinin Ternoviy Podı rayonunda Rusiya tərəfinin hücumu nəticəsində həyatını itirib.

Müdafiəçi Ruslan Bayramov Haysın şəhərindəki qəbiristanlıqda hərbçilərin və yerli əhalinin iştirakı ilə dəfn edilib.

## BAŞ NAZİR: “BİZ ÜÇ DƏFƏ MÜHARİBƏDƏ OLMUŞUQ, BƏSDİR”



İkinci cəbhənin Gürcüstana gətirilməsi ilə bağlı bir çox səylərə baxmayaraq bizim məntiqli siyasətimiz sayəsində bütün bunların qarşısı alınıb. Bunu Baş nazir İrakli Qaribaşvili hökumətin iclasında deyib.

O, müxalifətin ölkədə ikinci cəbhə açmağa çalışdığını vurğulayıb:

“Onlar müxalifətdədirlər və müharibə başlayandan Gürcüstanda ikinci cəbhənin açılmasına çalışırlar. Onlar indi hakimiyyətdə olsaydılar ölkəni döyüş meydanına çevirərdilər. Onlar öz iradələri və qərarları ilə ölkəmizin 20 faizini – Kodori Vadisini itiriblər və bizim qəhrəman əsgərlərimiz bu müharibənin və onların məntiqsiz addımlarının qurbanı olub”.

Qaribaşvili qeyd edib ki, hazırda həm Ukraynada, həm də dünyada mürəkkəb vəziyyət mövcuddur:

“Mən hər kəsə xatırlatmaq istərdim ki, ABŞ Prezidenti, Avropa ölkələrinin liderləri vətəndaşlarını açıq şəkildə döyüşlərdə iştirak etməməyə çağırırlar və öz həmrəyliklərini digər yollarla ifadə etməyə çalışırlar. Bizim əsas öhdəliyimiz ölkədə firavanlığın təminatı olan sülh və sabitliyi saxlamaqdır. Biz müstəqilliyimizi bərpa etdikdən sonra üç dəfə müharibədə olmuşuq, bəsdir”.

Baş nazir Ukraynadakı döyüşlərdə 33 gürcünün həlak olduğunu, bunun Gürcüstan üçün böyük itki olduğunu bildirib və onların yaxınlarına başsağlığı verib.

İrakli Qaribaşvili jurnalistlərə açıqlamasında onu da bildirib ki, Gürcüstan Ukraynadakı müharibədə heç vaxt iştirak etməyəcək.

O, rəsmi Tbilisinin Ukraynaya hərbi yardımla bağlı mövqeyinin dəyişmədiyini vurğulayıb.

“Hərbi yardımlarla bağlı, biz aydın və birmənalı olaraq bunu etməyəcəyimizi dedik. Biz bu müharibədə iştirak etməyəcəyik. Bu bizim aydın mövqeyimizdir. Biz öz vətəndaşlarımıza görə məsuliyyət daşıyırıq”, - deyə Qaribaşvili bildirib.

Baş nazir Gürcüstanın Ukraynaya min tondan çox humanitar yardım göndərdiyini, 190 ölkə arasında Gürcüstanın Ukraynaya ən çox humanitar yardım göstərən ölkə olduğunu qeyd edib və əlavə edib ki, Gürcüstanda indi də ukraynalı qaçqınlara yardım edilir.

Səh. 2 RUSTAVİDƏN NEAPOLA GEDƏN YOL – XVİÇA KVARATSXELİYA - Anar Rafiqoğlu yazır

Səh. 3 DƏRS KABİNETLƏRİ - Çiyalə Osmanova yazır

Səh. 4 MƏKTƏBİN MƏLUMAT ÜZRƏ MENECERİNİN HANSI ÖHDƏLİKLƏRİ VAR VƏ KİM BU VƏZİFƏDƏ İŞLƏYƏ BİLƏR?

Səh. 4 BAĞÇA ƏMƏKDAŞLARININ UŞAQLAR QARŞISINDAKI ÖHDƏLİKLƏRİ

Səh. 4 UŞAQ BAĞÇALARINDA MÜƏLLİM VƏ KÖMƏKÇİLƏRİN SAYI AZALIB

Səh. 5 KİMSƏNİ QINAMAYIN - Esmira Ələkbərli yazır

Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze

Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

## GÜRCÜSTAN VƏTƏNDAŞLIĞININ BƏRPASI ÜÇÜN MÜRACİƏT MÜDDƏTİ DAHA İKİ İL UZADILACAQ



Gürcüstan parlamenti vətəndaşlığını bərpa etmək istəyənlərin ərizələrinin qəbulu üçün son müddətin 2024-cü ilin sonuna qədər uzadılmasını nəzərdə tutan qanuna dəyişiklikləri nəzərdən keçirməyə başlayır.

Müvafiq qanunvericilik təşəbbüsü parlamentin bürosunun iclasında qeydə alınıb.

Qanun layihəsinin müəllifləri parlamentdən təşəbbüsə qısa zamanda baxılmasını xahiş edir.

Mövcud qanunvericiliyə əsasən, başqa ölkənin vətəndaşlığını qəbul etdiyinə görə vətəndaşlığını itirmiş şəxs bunu qaytarmaq tələbi ilə 2022-ci il dekabrın 31-dək Ədliyyə Nazirliyinə müraciət etmək və ona pasport verilməsini istəmək hüququna malikdir.



# RUSTAVİDƏN NEAPOLA GEDƏN YOL – XVİÇA KVARATSXELİYA

Anar RAFİQOĞLU
anar.rafiqoglu@gmail.com

Məni yaxından tanıyanlar bilirlər ki, uşaq vaxtı nəinki futbola marağım vardı, hətta ən böyük arzum futbolçu olmaq idi. Üstəgəl, bu xəyalımı gerçəkləşdirmək üçün futbol məktəbinə belə yazılmışdım. Amma müxtəlif səbəblərə görə futbol karyeram kəpənək ömrü kimi qısa sürdü. Bəlkə də belə olmağı daha yaxşı oldu. Hər nə qədər azdan-çoxdan istedadım olsa da, inanmıram ki, yüksək səviyyəli bir futbolçu olardım. Bizim elə futbolda da bəxtimiz gətirməzdi. Yəqin ki, hazırda Gürcüstanın hansısa 2-ci liqa klubunda ayda 630 lari maaşa futbol oynadırdılar. Lakin pozitiv istisnalar da az deyil.

Gürcüstanda hər nə qədər bəzi sahələrdə inkişaf zəif olsa da, idman sahəsi bu yöndə müsbət olaraq fərqlənir. Məsələn, indi bir çoxumuzun yaddaşında Tbilisi meri olaraq yer alan Kaxa Kaladze dövrünün ən yaxşı müdafiəçilərindən biri hesab olunurdu. Uzun illər şərəfini qoruduğu İtaliyanın "Milan" klubu o dövrdə Avropanın ən güclü beş klubundan biri sayılırdı. Həmçinin Şota Arveladze də, Türkiyə çempionatında qol kralı olan və "Trabzonspor" azarkeşləri tərəfindən komandaya gəlmiş ən yaxşı əcnəbi futbolçu kimi göstərilən Şota daha sonra Hollandiyanın "Ayaks" və "AZ Alkmaar", Şotlandiya nəhəngi "Reyncers" klubunda atdığı qollarla dövrünün ən yaxşı hücumçularından birinə çevrilmişdi. Bu siyahıya hazırda Gürcüstan Futbol Federasiyasının prezidenti olan Levan Kobiaşvilini də böyük ürəklə əlavə edə bilərik. O da vaxtilə Almaniyanın "Frayburq", "Şalke 04" və "Herta Berlin" kimi güclü klublarında çıxış edib. Sadəcə futbolmu? Əlbəttə ki, xeyr! Fərqli idman növlərində də bir çox dünya şöhrətli idmançılar bu torpaqlarda dünyaya göz açıblar. Məsələn, basketbolda zirvə hesab olunan Amerikanın peşəkar basketbol liqası NBA-da uzun illər, nə az, nə çox, altı fərqli klubda çıxış etmiş Zaza Paçuliya! Məşhur tennisçimiz də var: Nikoloz Basilaşvili. Hansı ki, 2019-cu ilə qədər dünyanın ən yaxşı tennisçiləri sıralamasında 16-cı yerə sahib idi. Gürcüstanın hətta dünya şöhrətli sumo güləşçisi də var: Levan Qorqadze. Lap elə soydaşımız Zabit Səmədovu da nümunə göstərə bilərik. Qardabanidə dünyaya gəlib və kikboksinqdə zirvələri fəth edib. Siyahını daha da uzada bilərik. Amma qayıdaq əsas qəhrəmanımıza...

Xviça Kvaratsxeliya 2019-cu ilə qədər mənim də dəfələrlə matç izlədiyim palçıqlı, kartof yetişdirmək üçün kifayət qədər əlverişli olan Rustavi stadionunda, 46 adamın qarşısında oynayırdı. İndi isə o, dünyanın ən gözəl, ən böyük, ən görkəmli stadionlarında, ən azı 46 min azarkeşin qarşısında çıxış edir. Və hazırda futbol bazarında onun dəyəri 60 milyon avro olaraq göstərilir. Bu cür davam edəcəyi təqdirdə tezliklə, yüksək ehtimalla, yazdığım məbləğə yaxın, hətta daha yüksək bir qiymətə Avropanın 4-5 ən güclü klubundan birinə transfer olacaqdır.

Bəs Xviça və adlarını sadaladığım digər idmançılar necə uğur qazandılar? Əminəm, onlardan bəzilərinə də zamanında deyilib ki, Gürcüstandan futbolçu, basketbolçu, tennisçi, güləşçi və s. çıxmaz. Təəssüf ki, həvəs qırmağı sevən coğrafiyada yaşayırıq. Keçdiyimiz yazılardan birində qeyd etmişdim ki, "bir insanın həvəsini qırmaq onun gələcəyini əlindən almağa bərabərdir". Görünür, bu şəxslərin həvəsini qırmağı və gələcəklərini əlindən almağı bacarmayıblar. Məhz budur uğura gedən yolun açarı: motivasiya, qərarlılıq, əzmkarlıq. Yoxsa filankəs onu dedi, filankəs bunu dedi deyə hamıya qulaq versən, axırda olacaqsan uzunqulaq. Sözə və sözü kimin dediyinə baxmaq lazımdır ilk öncə. "Qəzənfər dayı belə deyir" deməklə deyil. Kimdir axı Qəzənfər dayı? Nəçidir? Mütəxəssisdirmi? Tarixə, elmə, sənətə işıq tutmuş, yön vermiş şəxsdirmi? Əgər bütün bunlar deyilsə, onda biz niyə Qəzənfər dayının dediyi ilə oturub-durmalıyıq? Əslində dərinə getsək, Qəzənfər dayının heç özünün bu yaşa kimi bir baltaya sap olmadığını da görərik. Amma yox, Qəzənfər dayılar, bəzi xalalar, bibilər həyatımızın bir çox mərhələsində, bir çox məsələdə bizdən daha çox həlledici rol oynayırlar. Oxumaq istəyirik – "onu oxuma", evlənmək istəyirik – "onunla evlənmə", iş qurmaq istəyirik – "o işin başını burax"... Bütün bunları niyə yazıram? Çünki, bilirəm ki, Xviça kimi bir çox istedadlar yenə var. Amma istedadlardan daha çox həmin istedadları öldürən şəxslərin olduğunu da bilirəm. Əfsuslar olsun ki, bizdə həzm problemi var. Bəli, baxmayaraq ki, Borjomi, Nabeqlavi, Likani kimi dəyərli mineral sularımız var, yenə də həzm etməyi bacarmırıq. Lap hər şeyi həzm edə bilsək də, uğuru həzm edə bilmirik biz. Elə ona görə də deyirik ki, Gürcüstandan futbolçu çıxmaz, yazıçı çıxmaz, alim çıxmaz. Bütün bunları qırmızıcasına söyləmək isə əslində bizim kəmfürsət təmənnimiz, paxıl istəyimizdir. Qorxuruq ki, birdən kimsə qabağa gedər, biz də onun arxasında qalarıq. Məsələn, indi inanırsınızmı ki, bir neçə il öncə Xviça ilə eyni meydana çıxan dostlarının hamısı Xviçanın bu gününə sevinir? Bəziləri hətta bəlkə də deyir: "Bu petləbaşa bax, dünənə kimi mən verən şortiki geyinirdi, indi adamı saymır". Amma nəticə etibarilə tarixdə onlar yox, Xviça Kvaratsxeliya qalacaq. Çünki tarix uğursuzları yox, uğur qazananları yazır...

# QARİBAŞVİLİ SAAKAŞVİLİNİN MÜALİCƏ ÜÇÜN XARİCƏ BURAXILMAYACAĞINI DEYİB



Biz hüquqi dövlətik və heç kimin özünü qanunlardan üstün tutmasına icazə verməyəcəyik. Bunu Baş nazir İrakli Qaribaşvili jurnalistlərin sabiq Prezident Mixeil Saakaşvilinin səhhəti ilə bağlı sualına cavabında deyib. O, qeyd ki, Saakaşvili həbs edildiyi ilk gündən tezliklə azadlığa buraxılacağı illüziyasına qapılıb.

"Bir şeyi bilirəm ki, Saakaşvili inqilab və qan tökülməsini təşkil etməkdə qətiyyətli idi. O, həbs edildiyi ilk gündən hər kəsi qan tökülməsi ilə təhdid edirdi. Daha sonra o aclığa başladı və dünya tarixindəki bütün aclıq rekordlarını qırdı. Biz yayılan görüntüləri də gördük, o gizlincə qida qəbul edirdi. Mən detallara getmək istəmirəm. Saakaşvili həbs edildiyi gündən elə bir illüziyaya qapıldı ki, guya bir həftə ərzində azadlığa buraxılacaq. Daha sonra isə bir ay, iki ay, üç ay... Mən çox eşitmişəm ki, Saakaşvili depressiyadadır və olduğu mühiti bəyənmir. Hansı məhbus öz olduğu mühitini bəyənir ki?", - deyə Qaribaşvili jurnalistlərə açıqlamasında bildirib.

Baş nazir Saakaşvilinin müalicə alması üçün xaricə göndərilməsi tələblərinin əslində onun azadlığa buraxılması üçün olduğunu, lakin buna imkan verilməyəcəyini qeyd edib.

# ETNİK AZLIQLARA AUTENTİK PRİNSİP ƏSASINDA SOYAD VERİLMƏSİ İSTİQAMƏTİNDƏ MEXANİZM YARADILIR



Gürcüstanda yaşayan etnik azlıqların nümayəndələrinə autentik, yəni onların etnik adət-ənənələrinə və mədəni özünəməxsusluğuna xas olan prinsip əsasında soyad verilməsi istiqamətində effektiv mexanizm yaradılır. Bununla bağlı "Tarixi-mədəni ənənələrə uyğun olmayan soyadların dəyişdirilməsi haqqında" yeni qanun layihəsi hazırlanıb. Layihə parlamentin deputatları Zaur Dargallı, Mixeil Sarcveladze, İsko Dasen, Savalan Mirzəyev, Qoqi Meşveliani, Aluda Quduşauri, Sozar Subari, Anton Obolaşvili və digərlərinin təşəbbüsü ilə hazırlanıb.

Qanun layihəsi İnsan Hüquqlarının Müdafiəsi və Mülki İnteqrasiya Komitəsinin iclası çərçivəsində Bolnisi bələdiyyəsində birinci oxunuşda müzakirə edilib.

Deputat M.Sarcveladzenin sözlərinə görə, tarixi və mədəni ənənələrə uyğun olmayan soyadların dəyişdirilməsi ideyası bir neçə il əvvəl ölkədə yaşayan etnik azlıqların müraciəti əsasında yaranıb.

Məsələ araşdırıldıqdan sonra məlum olub ki, oxşar problemlərin həlli müxtəlif milli azlıqların nümayəndələrinin, o cümlədən Gürcüstanda yaşayan azərbaycanlı icmasının da marağındadır.

Qeyd olunub ki, qanun layihəsinə əsasən, məsələ ilə bağlı ədliyyə naziri məşvərətçi-elmi şura yaratmalıdır. Etnik azlıqların nümayəndələrindən, alimlərdən, tarixçilərdən və aidiyyəti ekspertlərdən ibarət şura öz səlahiyyətləri daxilində soyadlarla bağlı məsələləri araşdırmalı, müvafiq prosedurları müəyyən etməli və hədəf qrupların maraqlarından çıxış edərək, soyadların həqiqiliyini müəyyənləşdirməlidir.

Qanun layihəsinin qüvvədə olma müddəti 5 il müəyyən edilib, lakin prosesin gələcəkdə necə davam edəcəyi, bu mexanizmlərə baxılarkən daha ətraflı şəkildə müəyyənləşəcək.

Görüşdə komitə üzvləri və yerli ictimaiyyət nümayəndələri qanun layihəsi ilə bağlı fikirlərini bölüşüb, rəy və təkliflər irəli sürüb, qeyd olunan dəyişikliklərin gözlənilən nəticələrindən danışıblar.

İclasda iştirak edən komitə üzvləri məsələni müzakirə etdikdən sonra plenar iclasda qanun layihəsinin birinci oxunuş üçün parlamentə təqdim edilməsini yekdilliklə dəstəkləyiblər.

*Mənbə: azertag.az*

## YTB RƏHBƏRİ GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATINDA OLUB



Yurtdışı Türkler və Akraba Topluluklar Başkanlığının (YTB) rəhbəri Abdullah Erenin başçılıq etdiyi nümayəndə heyəti Gürcüstan səfəri çərçivəsində Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) ofisində olublar.

Dekabrın 14-ü baş tutan görüşdə GYMD sədri Musa Hacıyev qonaqları salamladıqdan sonra onlara təşkilatın fəaliyyəti haqqında geniş məlumat verib, gələcək layihələr müzakirə olunub.

Türkiyədən gələn qonaqları Türkiyənin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Ali Kaan Orbay müşayiət edib.

Görüşdə həmçinin Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Təhsil Şöbəsinin sədri Tural Qasımov, təşkilatın layihə koordinatoru Zviad Koçalidze, "Uğur" jurnalının redaktoru Hacı Bəkiroğlu, təşkilatın qrafik dizayn üzrə mütəxəssisi Elsevər Əhmədov iştirak ediblər.

Görüşün sonunda qarşılıqlı olaraq hədiyyələr təqdim olunub.

## İRAKLİ QARİBAŞVİLİ "SANKO HOLDİNG"İN FƏXRİ PREZİDENTİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili "Sanko Holding"in fəxri prezidenti Zeki Konukoğlu ilə görüşüb.

Tərəflər Gürcüstanın güclü investisiya potensialı və gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Həmçinin "Sanko Group"un həyata keçirməkdə maraqlı oduğu investisiya layihələrindən söhbət açılıb.

Bildirilib ki, "Sanko Group"un əsas ofisi Türkiyədə yerləşir, holdinqdə 14 000 nəfər işləyir. Şirkət bir neçə istiqamətdə fəaliyyət göstərir. Onlar arasında bərpa olunan enerji, tikinti, daşınmaz əmlak, tekstil və digər sektorlar da var.

Hökumət administrasiyasında keçirilən görüşdə Türkiyə Cümhuriyyətinin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Ali Kaan Orbay və "Sanko Holding"in direktoru Cemal Arık da iştirak ediblər.

## AVROPA İTTİFAQI GÜRCÜSTANIN MÜDAFİƏ QABİLİYYƏTİNİN ARTIRILMASINA 20 MİLYON AVRO AYIRIB

Gürcüstanın Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, Avropa İttifaqı (Aİ) Şurası Gürcüstanın müdafiə qabiliyyətinin artırılması üçün 20 milyon avro məbləğində yardım ayrılmasına razılıq verib.

Bildirilib ki, yardım paketi Avropa Sülh Fondunun Avropa İttifaqının müdafiə və təhlükəsizlik siyasəti çərçivəsində qəbul edilib.

Yardım Gürcüstanın kibertəhlükəsizliyinin, hərbi-tibb, hərbi-mühəndis qurğularının və nəqliyyat vasitələrinin potensialının artırılmasına yönəldiləcək.

Qeyd edək ki, Gürcüstan artıq ikinci dəfədir Aİ-dən bu cür yardım alır. İlk yardım Gürcüstana 2021-ci ildə ayrılıb.

## DƏRS KABİNETLƏRİ




Düşünürəm ki, əsaslı təmirdən keçmiş hər bir məktəbin mütləq dərs kabineti vardır, necə ki, bizim məktəbin. Bu kabinetlər tədris olunacaq fənn üçün lazım olan bütün ləvazimatlarla təchiz olunaraq dərsin orada keçilməsi üçün nəzərdə tutulmuşdur. Bunların içində ən maraqlısı isə kimya, fizika və biologiya kabinetləridir. Çünki əgər bu sahələrlə bağlı hər hansı işdə işləmiriksə və ya işləməyi düşünmürüksə, onda buradakı ləvazimatlarla həyatda ya heç qarşılaşmırıq, ya da onlara çox az təsadüf edirik.

İş burasındadır ki, məktəblərdə bu kabinetlərdən az istifadə olunur. Məsələn, biz 9-cu sinifdə oxuyanda biologiya kabinetinə yalnız bircə dəfə "Dayaq-hərəkət sistemi" adlı paraqrafda "İnsan skeleti" dərsini keçdiyimiz zaman getmişdik. Onda da skeletin üstündə durduğu avadanlığın təkərlərinin biri qırıq olduğuna görə onu sinfə gətirmək mümkün olmadığı üçün getmişdik. Bəlkə də həmin dərs bu günə qədər keçdiklərimizin içində ən maraqlısı idi. Çünki ancaq kitabda şəkillərini gördüyümüz hər şeyin maketi mövcud idi. İnsanda böyük bir marağın yaranmasının qarşısını almaq mümkün deyildi. Buna görə də həmin dərs maketləri ələ alaraq müəllimə ən çox sual verilən, ən çox səs-küy yaranan, əksəriyyətin diqqətinin əsas dərsdən (insanın skeleti) yayındığı, gözü müəllimdə, fikri başqa yerdə olduğu dərs olmuşdu. Hələ dərsin sonunda oğlanların hamısı skeletlə şəkil belə çəkdirmişdi. Bəlkə o gün skeletin yerinə canlı məşhur bir adam olsaydı bu qədər şəkil çəkdirən olmazdı. Və bütün bunları görən müəllim bizi bir daha buraya gətirməmək haqqında "qərar" qəbul etmişdi. Belə də oldu. Həmin dərs bizim o kabinetdəki ilk və son dərsimizdir.

Fizika və kimya kabinetlərində isə daha çox dərs keçmişik. Hər biri də bir-birindən maraqlı. Lakin oxşar hadisələr burada da yaranıb. Yenə bu kabinetlərdə də bir çox ləvazimatlar marağımızı cəlb edirdi. Hamı onlara toxunmaq, daha yaxından baxmaq istəyirdi. Kimya kabinetinə getməzdən əvvəl müəllim bizi əvvəlcədən məlumatlandırmış, davranış qaydaları haqqında söhbət etmişdi. Elə girişdə də bu qaydalar hamını oxuya biləcəyi böyüklükdə hərflərlə yazılmışdı. Müəllim bir dəfə yenə onların üstündən keçib dərsə başlamışdı. Amma yəqin uşaqlar bunun tam fərqinə vara bilməmişdilər ki, yenə də ləvazimatları əllərinə almaq istəyirdilər. Müəllim toxunmayın dedikdə: – Qorxmayın müəllim, sındırmaram – kimi sözlər eşitmişdi. Müəllim isə cavabında: – Onun sınmasından yox, sənin zərər çəkməndən qorxuram – deyirdi. Bir daha xəbərdarlıq etdikdən sonra dərsə davam etmişdik.

Fizika kabinetində kimyəvi maddələr olmasa da kimya kabineti ilə ortaq nöqtəsi öz ətrafında 360 dərəcə fırlanan stullardır. Bir də baxırsan dərsin ortasında bəzi uşaqlar başladılar fırlanmağa. Bu da insanı qıcıqlandırmağa və dərsi pozmağa yetərlidir. Amma bu hal o qədər də uzun çəkmir və davam edirik dərsə.

Buradan da məlum olur ki, bir çox şagird, hansı ki, əksəriyyəti oğlanlardır, dərs kabinetlərində özlərini idarə etməyi bacarmırlar və bunun nəticəsidir ki, 3 il bundan qabaq yalnız üstündə durduğu avadanlığın təkərlərinin biri qırıq olan skelet bu gün "şikəstdir".

İş belə olduqda müəllimi də qınamaq olmaz. Çünki onları narahat edən ləvazimatın sınması deyil, şagirdin xəsarət almasıdır. Amma bunun qarşısını almağın tək yolu "siz kabinetdə özünüzü apara bilmirsiniz" deyib şagirdləri bir daha buraya gətirməmək deyil. Müəllimlər başa düşməlidirlər ki, uşaqların belə davranmağının əsas səbəbi maraqdır.

Maraq insan deyilən varlığın dünyaya gəldiyi gündən sahib olduğu ən mühüm xüsusiyyətidir. Onun sayəsində çoxlu kəşflər olmuş, elm bu qədər inkişaf etmişdir. Uşaqlara kabinetdə gördükləri bütün bu ləvazimatlar maraqlı gəldiyi üçün buradakı dərslər bu cür keçir. Ona görə də əvvəlcə, nənəm demiş, onların "gözlərinin qurdunu öldürmək" lazımdır. Ən azı dərsin mövzusuna uyğun ləvazimatların bəzilərini sinfə gətirib dərsi bunlar üstündə keçməlidirlər. Yoxsa ildə bir dəfə gələn böyük endirim kampaniyası kimi ancaq bir dəfə aparıb göstərdikdə gözlənilən keyfiyyətdə dərs keçmək, əlbəttə, mümkün olmayacaqdır. Belə olsa bəlkə çox sayda uşağı dərsə cəlb etmək olar. Bir də kabinetə getmək üçün uşaqların ancaq 9-cu, 10-cu sinfə çatmasını gözləmək lazım deyil. Onsuz da bunun o qədər də bir mənası olmur. Maraq insanı hər yaşda tapır. Heç olmasa kabinetlərlə tanışlığa 7-ci sinifdən başlansa və bu, birdəfəlik və ya müvəqqəti bir hal olmasa uşaqlar da özlərini düzgün idarə edərlər. Əgər bu vəziyyət belə davam etsə, onda bu kabinetlər dərs keçmək üçün yox, hansısa yoxlama komissiyası gəldikdə adı çəkilmək üçün nəzərdə tutulan bağlı qapılara çevriləcəklər.

**Çiyalə OSMANOVA**

*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

## MƏKTƏBİN MƏLUMAT ÜZRƏ MENECERİNİN HANSI ÖHDƏLİKLƏRİ VAR VƏ KİM BU VƏZİFƏDƏ İŞLƏYƏ BİLƏR?

Gürcü dilini və ofis proqramlarını yaxşı bilən şəxs məktəbin məlumat üzrə meneceri ola bilər. Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin vakansiyalarla bağlı veb-səhifəsində bəzi məktəblər məlumat üzrə menecer işi üçün ali təhsil tələb edir, digərləri isə bunu vacib hesab etmirlər.

**Məktəbin məlumat üzrə menecerinin aşağıdakı öhdəlikləri var:**

• Şagirdləri (1-ci siniflərin qeydiyyatı, şagirdlərin mobilliyi, statusun dayandırılması/bərpası və s.) məktəbin elektron göstəricilər bazasında (eschool.emis.ge) siyahıya alsın;

• Məktəbin elektron göstəricilər bazasında məktəb tərəfindən seçilmiş qriflənmiş dərsliklərin elektron şəkildə göstərilməsini təmin etsin;

• Məktəbin elektron göstəricilər bazasında müəllimlərin göstəricilərini qeyd etsin, müəllimlərin saat qrafikini yerləşdirsin, dərs cədvəllərini tərtib etsin və digər əməliyyatları yerinə yetirsin;

• Məktəbin elektron göstəricilər bazasında şagirdlərin istifadəsində olan qriflənmiş dərsliklərin qiymətləndirilməsi barədə məlumatın elektron təsvir edilməsini təmin etsin;

• Məktəbin elektron göstəricilər bazasında Qəyyumlar Şurasının qeyd olunmasını, üzvün səlahiyyətinin dayandırılmasını və yeni üzv haqqında məlumatın təsvir edilməsini təmin etsin;

• Lazım gəldiyi halda məktəb şagirdləri, müəllimlər və məktəbin başqa əməkdaşları üçün məlumat texnologiyalarından effektiv istifadə edilməsi üçün məsləhətlər versin;

• Gürcüstanın Təhsil və Elm Nazirliyinin göndərdiyi tapşırıqların yerinə yetirilməsi – elektron olaraq məlumatın toplanması və göndərilməsinə kömək göstərməyi təmin etsin;

• Əməkdaşların və şagirdlərin ona məlum olan şəxsi məlumatlarını qorusun;

• Səlahiyyətləri çərçivəsində məktəb direktorunun tapşırıqlarını yerinə yetirsin.

Məlumat üzrə menecerlər bəzi hallarda məktəbin veb-səhifəsini və feysbuk səhifəsini idarə etməli olurlar.

***Qeyd edək ki, məlumat üzrə menecerin müvafiq kompetensiyanı təsdiq etdiyi halda həmin məktəbdə müəllim olaraq işləmək hüququ da var. Ancaq onun iş qrafiki həftədə 16 dərs saatından artıq olmamalıdır.***

## MƏKTƏB KATİBİNİN ÖHDƏLİKLƏRİ – QEYD OLUNAN VƏZİFƏDƏ HANSI TƏHSİL VƏ BACARIQLARA MALİK OLMALISINIZ?

Məktəb katibi gələn sənədləri qeydə alan, eləcə də rəsmi məlumat verən və şəxsi məlumatların qorunması öhdəliyini daşıyan şəxsdir.

Katib kimi çalışmaq istəyənlər kompüterdə ofis proqramları ilə yaxşı işləməyi bacarmalıdırlar.

"Etaloni.ge" məktəblərin katiblərdən nə tələb etdiyi, onların bu vəzifədə hansı öhdəliklərinin olması və hansı bacarıqlara malik olmaları ilə maraqlanıb. Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin işlə təmin etmə üçün nəzərdə tutulmuş veb-səhifəsindən aydın olur ki, katibin öhdəlikləri bunlardır:

• Dəqiq işləmək;

• Məktəb sənədlərinin siyahıya alınması və qeydiyyatdan keçirilməsi;

• Əlifba sırası ilə şagirdlərin siyahısının elektron variantının yaradılması;

• Şagirdlərin hərəkətinə nəzarət etmək;

• Məktəb arxivinin qorunmasını və tələb əsasında müvafiq sənədlərin təsdiqlənmiş surətinin verilməsini təmin etmək;

• Gürcüstan qanunvericiliyi ilə tətbiq edilmiş qaydaya əsasən ictimai məlumatın verilməsini təmin etmək;

• Gələn məktubları qəbul etmək və qeydiyyatdan keçirmək;

• Gələn məktubların müzakirəsini və onların ünvana çatdırılmasını təmin etmək;

• Sənədlər üzərində işləməyin texniki təminatını, çap və surətinin çıxarılasını təmin etmək;

• Müəllim və əməkdaşların şəxsi işinin qaydaya salınmasını təmin etmək və şagirdlərin şəxsi işinin yaradılmasına nəzarət etmək;

• Məktəb direktorunun sərəncamlarının, əmək müqavilələri və göndərilməli olan məktub layihələrinin hazırlanmasını təmin etmək;

• Direktorun sərəncamının, qərar və tapşırıqlarının ünvana çatdırılmasına nəzarət etmək;

• "email.mes.gov.ge" poçt ünvanında məktubları qəbul etməyi və cavab verməyi təmin etmək.

• Səlahiyyət çərçivəsində məktəb direktorunun başqa tapşırıqlarını yerinə yetirmək.

• İctimai məktəbin daxili qaydası və müqavilə ilə müəyyən edilmiş tələbləri yerinə yetirmək;

• Məktəbin inkişafının qayğısına qalmaq;

• Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulmuş öhdəlikləri yerinə yetirmək;

• Məktəb əmlakının qayğısına qalmaq, təhlükəsizlik qaydalarını qorumaq;

• Məktəbə vurduğu ziyanı ödəmək;

• Əməkdaşların və şagirdlərin haqqında ona məlum olan şəxsi məlumatları qorumaq;

**Katib vəzifəsində işləmək istəyənlər üçün əsas tələblər bunlardır:**

• Dövlət dilini tam bilmək;

• Ali təhsil;

• Ofis proqramlarını (Word, Excel, Outlook, PowerPoint) tam bilmək;

• Gürcüstanın Təhsil və Elm Nazirliyinin elektron sənəd dövriyyəsi proqramı "eFlow" və məktəb bazalarının "eSchool" proqramlarında işləmək təcrübəsi.

## BAĞÇA ƏMƏKDAŞLARININ UŞAQLAR QARŞISINDAKI ÖHDƏLİKLƏRİ

Erkən təhsil xidməti, yaxud məktəbəqədər təhsil xidməti göstərən və ya yalnız məktəbə hazırlıq proqramını həyata keçirən müəssisə heyəti üçün vəzifə təlimatı, davranış və etika normaları təsdiq edilib.

Heyətin hər bir uşaqla münasibəti üçün davranış və etika normaları bu cürdür:

1. Heyət öz səlahiyyətlərini uşağın ən yaxşı maraqlarını nəzərə almaqla həyata keçirir. Heyət uşağı təhsil prosesinin fəal iştirakçısı olaraq tanıyır və onun perspektivini nəzərə alır.

2. Heyət uşağın fərdiliyini, fərqliliyini tanıyır və hörmətlə yanaşır.

3. Heyət uşağın qrupa və müəssisəyə mənsubiyyət hissinin qayğısına qalır.

4. Heyət fiziki və psixoloji zorakılıqdan mühafizədə olan, inklüziv mühit yaradır. Bütün uşaqların fiziki, elmi, sensor, sosial, emosional, linqvistik, etnik, irqi, dini, gender və ya başqa xüsusiyyətlərindən asılı olmayaraq həmin mühitdə inkişaf etmək imkanı var.

5. Heyət hər uşağın fiziki və psixoloji təhlükəsizliyinin, sağlamlığının qayğısına qalır.

6. Heyət uşaqla bərabər və hüquqa malik subyekt olaraq münasibət qurur.

7. Heyət uşağın çoxşaxəli inkişafı üçün oyunun əhəmiyyətindən xəbərdardır.

8. Heyət bütün uşaqların fikrini söyləmək imkanı olan şərait yaradır.

9. Heyət həmçinin şəxsi nümunəsi ilə uşağın vətəndaş məsuliyyətinin formalaşmasının qayğısına qalır.

10. Heyət uşaq və ailənin sıx əlaqəsinin əhəmiyyətini nəzərə alır, bu əlaqədən uşağın ən yaxşı maraqlarını qorumaq üçün uşaq haqqında ailəyə məlumat verməyə istifadə edir.

11. Heyət uşaqla əlaqədar məlumat, foto, video material və ya əl işi paylaşan zaman (xüsusilə internet məkanda) uşağın və valideynin razılığını alır, uşağın ən yaxşı marağını qorumaqla hərəkət edir.

12. Müəssisə çərçivəsində planlaşdırılmış araşdırmalarda uşağın iştirakı zamanı onun maraqlarını qorumaqla hərəkət edir.

13. Heyət kritik vəziyyətlərdə sakitliyə riayət edir və vəziyyətə uyğun hərəkətlər həyata keçirir.

14. Heyət müsbət nizam-intizam strategiyasından istifadə edir.

15. Heyət bütün uşaqlara fiziki, elmi, sensor, sosial, emosional, linqvsitik, etnik, irqi, dini, gender və ya başqa xüsusiyyətlərdən asılı olmayaraq bərabər diqqət göstərir.

16. Heyət şəxsi dini, siyasi və dünyagörüşü ilə bağlı baxışlarını uşaqlara təlqin etmir və başqaları tərəfindən bu tipli hərəkətlərə yol vermir.

## UŞAQ BAĞÇALARINDA MÜƏLLİM VƏ KÖMƏKÇİLƏRİN SAYI AZALIB

Gürcüstanın Milli Statistika Xidməti məktəbəqədər ictimai təhsil müəssisələrinin müəllim və uşaq sayınının statistikasını yayımlayıb.

Xidmətin məlumatına görə, 2022-2023-cü tədris ilinin başlanğıcında Gürcüstanda 1 668 uşaq bağçası, 148 658 uşaq, 16 991 dayə-pedaqoq, müəllim, müəllim köməkçisi, inklüziv təhsil üzrə xüsusi müəllim olub. Qeyd edək ki, ötən tədris ili ilə müqayisədə 200-dən çox bağça müəllimi işini tərk edib.

Bağçaların sayına görə İmereti, müəllimlərin sayına görə isə Tbilisi liderlik edir.

2022-2023-cü tədris ilinin statistikasına əsasən, bölgələrə görə göstəricilər isə cədvəldəki kimidir:

| Bölgələr | Uşaq bağçalarının sayı | Uşaqların sayı | Dayə-pedaqoq, müəllim, müəllim köməkçisi, inklüziv təhsil üzrə xüsusi müəllim sayı |
|---|---|---|---|
| Tbilisi | 187 | 55 987 | 5 785 |
| Acara | 141 | 14 222 | 1 569 |
| Quriya | 85 | 3 747 | 585 |
| İmereti | 307 | 18 231 | 2 715 |
| Kaxeti | 228 | 11 618 | 1 384 |
| Mtsxeta-Mtianeti | 75 | 3 272 | 500 |
| Raca-Leçxumi və Kvemo Svaneti | 46 | 798 | 181 |
| Sameqrelo-Zemo Savaneti | 263 | 11 239 | 1 342 |
| Samtsxe-Cavaxeti | 82 | 5 481 | 672 |
| **Kvemo Kartli** | **122** | **14 399** | **1 241** |
| Şida Kartli | 132 | 9 664 | 1 017 |

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# KİMSƏNİ QINAMAYIN



Universitetdə psixologiyadan test keçirildi, sual belə idi ki, filan vəziyyətə düşsən necə hərəkət edərdin? Cavablar çox müxtəlif idi. Hamı məntiqlə, ağılla, səbirlə çıxış yolları göstərirdi. Professor 20-21 yaşlı gənclərə baxıb təmkinlə gülümsəyirdi. Növbə mənə çatanda qaşları çatıldı, həmişə hamıdan çox sual verən, fəal tələbə ciddi şəkildə susmuşdu. Onun mənə diqqəti sanki auditoriyanı ayıltdı. Sual dolu baxışlar məni əhatəyə aldı. Professor:

*– Sənin cavabın maraqlı olar, Borçalı qızı.*

Sakit başımı yellədim:

*– Mən deyə bilmərəm, müəllim.*

*– Niyə?*

Müəllimin maraqla verdiyi sual hamının olmazın diqqətini tamamilə mənə yönəltdi. Məcbur ayağa qalxdım. Bir neçə saniyə susdum və hamıya nəzər salıb dedim:

*– Yaxın dostunun xəyanətini bu gün biz açıq başla dinlədik və bir nağıl kimi ağılla məsləhət verə bilərik. Özümü nə qədər ağıllı hesab etsəm də, o vicdansız hadisə başıma gələrkən təbii şəkildə nə yaşayacağımı deyə bilmərəm. Ola bilər, kimisə qətlə də yetirə bilərəm, təbii ki, sonra peşman olmaq şərtiylə... dəyməzmiş düşünəcəkdim, amma zamanında nə edəcəyimə qəti əmin deyiləm.*

Professor müəllimimiz üzünü auditoriyaya çevirdi:

*– Razısınızmı, gənclər?*

Fikir ayrılığı yarandı. Professor əliylə sakitliyi bərpa işarəsi verdi və kürsüsünə yaxınlaşıb qeyd kitabını götürdü:

*– Sizi zamanın həyat meydanına buraxıram. İnşallah, heç vaxt qərarınızdan peşman olmayasınız,* – deyib qəribə bir təbəssümlə otaqdan çıxdı. Təbəssüm sanki Cokonda müəmması kimi çox mücərrəd idi. Ya o müəllim tələbələrin saflığına güldü, ya təcrübəsizliyinə, ya da mənəm deyən qürurlarına istehza etdi, çünki yaş fələyə kələk deyirdi.

O vaxtdan illər keçib, bilmirəm doğrudan da eləyəm, ya yox, amma mən heç kimsənin əməlinə istehza etmədim, daxilində hikmət axtardım, əlbəttə, baxır hansı vəziyyətə; həmişə düşündüm ki, Allah dediyimiz tale yazarı bizə düşüncə veribsə, nə xoş halımıza. Düşünməzdən fərqli olaraq ağılla addım atmalıyıq, öz məsuliyyətsizliyimizi şeytanın üstünə atmadan addımlamalıyıq. Fiziki qüsuru yoxsa sıradan biri “bilmirəm” sözünü deməməlidir, deyirsə günah özündədir. Hə, bax istehza istiqaməti ona yönəlməlidir. Yəni insanın edə bilməyəcəyi heç nə yoxdur. Edə biləcəkləri içində səhv qərarları, o cümlədən də “mən olsam elə etməzdim, belə edərdim, o səhvdir, bu düzdür” sindromudur. Biz başqasının yerinə necə qərar verə bilərik axı?



Həyatda yüzlərlə qətllər, intiharlar olur. İnanıram ki, qatillərin 90 faizi sonra peşman olur, intihar həddi də həmçinin, o elə bir an ki, beyin yalnız baş vermiş hadisə üzərində düşünür, qəti nəticəni, sonrakı peşmançılığın faydasız olacağını düşünmür. O an yalnız kinin, nifrətin əsirisən. Yaxud da lazımsız mübahisələri müzakirə edənlər haqlı tərəfi axtararkən də özünü həmin adamların yerinə qoysalar belə düzgün qərar verə bilməzlər. Heç vaxt! Çünki o təpkini – zərbəni yalnız yaşayan bilə bilər. Zərbənin ağırlığı isə orqanizmin fiziki gücündən asılıdırsa, söz zərbəsinin təsiri də qürurdan, mənəvi dəyərdən də asılıdır. Fiziologiyada bir-birinin əksi olan iki nəfər yoxsa, deməli, insanlar da bir-birindən fərqlidir. Eyni əks təsiri heç vaxt edə bilməzlər. Təhqirin dərəcəsi təhqir olunanın götürümü ilə tərs mütənasibdir. Kimin üçünsə adi söz digəri üçün acı səslənə bilər.

El arasında qeybət dediyimiz maraqlı müzakirə növü son vaxtlar qınaq mövzüsü kimi geniş vüsət alıb. Hamı bir-birini qınayır: “Yox, əşşi, düz etməyib, bu belə olmalıydı, belə edilməliydi, gərək belə etməyəydi, elə olaydı...” Kimsə düşünmür ki, axı mən onun yerində deyiləm, o yaşadığını mən yaşamıram, həmin an o cümlənin dəyəri hansı psixoloji vəziyyət yaradır, nə dərəcədə təhqirli alınır...

Məncə, hər bir şüurlu insan özünə zərər verən addıma getməz (təbii ki, istisnalar var). Yəni kimsənin zərərini kimsə ondan yaxşı bilməz. Odur ki, başqalarının həyatını müzakirə etməyək! Qınamaq çox asandır. Qınanmaqdan qorunmaq üçün qınamayaq!

**P.S.**

Bakıda bir qonşumuz vardı, yaşlı qadın idi. Bir gün işə gedəndə yol yoldaşı olduq. Təsadüfən rastımıza çıxan digər qonşu – boşanmış bir gəlin mənə salam verdi, özümü eşitməzliyə vurdum. Qadın bunu sezdi və “Yoxsa sən də bunu qınayırsan”, – dedi. Yalan demədim, düzü də etiraf etmədim. Susdum.

Qadın dedi:

***– Sən ağıllı gəlinsən, xoşum gəlir səndən, amma günahdan qorun, bala. Mənim ərim öldü, 3 uşaqla qaldım, 1-2 il maraqlanan oldu, kənardan gələnlə ailə dolanmaz, amma yenə az-çox oldu, tədricən kəsildi... qınamırdım, sovetlər təzə dağılmışdı, hamı ailəsini güclə dolandırırdı, mən yaddan çıxdım. Mühasib işləyirdim, maaşlar da bəzən bir neçə ay gecikirdi. 3 uşaqla çox çətin idi. Vəziyyətimi bilən bir iş yoldaşım dedi ki, istəsən bir evə səni köməkçi düzəldim, qoca kişidir, oğlu İsraildə yaşayır, yaxşı pul verər, sənin kimi dürüst adam axtarır. Razılaşmazdımmı? Elə yorulmuşdum ehtiyacdan.***

***Beləcə işdən sonra gedib kişinin yeməyini bişirir, paltarını yuyur, evini yığışdırırdım. Sağ olsun, oğlu mənə o dövrə görə çox miqdarda maaş verirdi. Hərdən gələndə uşaqlarıma, özümə geyimdən tutmuş əşyalara qədər gətirərdi. Beləcə o ailənin hesabına 3 oğulu oxutdum, yerləşdirdim. Sağ olmuşlar kişi öləndən sonra da mənə, oğlanlarıma kömək etdilər ki, atamızın üstündə haqqın var.***

***Bilirsən mənə nələr demədilər: biri dedi ərə gedib, biri dedi, əşşi, nə bilim nələr... amma bircə nəfər demədi ki, bəs necə dolansın?!. Bax məni yandıran o idi ki, illərlə halımı soruşmayanlar indi vaxt tapıb qeybət edirdilər. Mənim gücüm nəyə çatardı? Yalnız onu deyirdim ki, ay Allah, onları sənə tapşırıram. Allah mənə haqq verdi, amma onlar nahaqlarıyla cəzalansalar da haqqı anlamadılar.***

***Odur ki, qızım, amandı, bilmədiyin heç nəyi danışma, böhtanın cəzası ağırdır.***

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

### (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Oğuz tayfası ağsaqqalının portreti barədə ümumi olaraq yuxarıda söhbət açdım. Halbuki burada yenə də Salur Qazanın tərifini, hər halda, təkrarlamağı məqsədyönlü hesab edirəm: "Tulu quşun yavrusu, bizə miskin umudı, Amit soyinin aslanı, Qaracuğin qaplanı, qonur atın iyəsi... Qalın Oğuzun dövləti, qalmış yigit arxası..." (K.D.Q., səh. 45, D.K.K., səh. 16; O.D.D.K.K. səh. 50). Qısası, gətirilən çıxarışda qədim ənənəvi və ümumən qəbul edilmiş oğuz bəyin obrazı lakonik şəkildə verilmişdir. Belə ki, o, Tülü quşun balası, yazıqların ümidi, Amit soyunun aslanı, Qaraçığın qaplanı, qonur atın yiyəsidir. Ən başlıcası, Qalın oğuzun dayağı, igidlərin arxasıdır. Bədii-estetik model bu cürdür ki, bu da, qədim oğuzların qəhrəman-igidin tipik simasını necə düşündükləri barədə bizdə təsəvvür yaradır.

Lakin bu model pozulur və demək mümkündür ki, oğuz bəylərinin simaları daha rəngarəng və fərqli spektrdə təsvir edilir. Əgər artıq əvvəllər gətirilən iki kəlmə ilə o dövrlər adlı-sanlı bəylərin təbiət və xarakterlərinin verildiyi geniş nüsxəni bir daha xatırlasaq, nəzər yetirən gözlər asanca sezəcəkdir ki, onlar bir-biri ilə fərqli təbiət və xarakterə malikdirlər ki, bunu da onların əxlaqı, elə götürək, zahiri görünüşü, onların məqsədi, təchizatı və geyimi təsdiqləyir. Bir baxışla, sanki əhəmiyyətsiz cizgilərdir, lakin həqiqətdə onların daxili aləminin yayımçısıdır və müvafiq olaraq onlar sxematik qəhrəman tipləri deyil, eləcə də fərdlər fərqli təbiətə və düşüncəyə malik insanlardır. Hər halda, başqaları gücü ilə fərqlənirlər, iri daş parçalarını ovub tökürlər, dəmir qapıları dibindən qopardırlar və altmış tutamlıq iri nizə ilə düşməni bağırdırlar, başqaları isə yenə qalaları dağıdırlar, kafirlərin qanını tökürlər. Pəhləvanları və bəyləri bir-birinin ardınca atdan yerə salırlar, filankəs peyğəmbərin sifətini gördü və vasitəçi adını aldı. Eləsi də vardır ki, kafirləri it ardına buraxır, vətəni tərk edir və otuz yeddi qala-qəsrin sahibi olan bəyin qızını qaçırır; eləsi də vardır ki, Bayburd qalasından aşağı düşdü və yeddi qızın ümidinə çevrildi; bəzisi isə Qazan xanın özünün qadınına məftundur və onu özünə arvad alır. O da diqqətə layiqdir ki, onlar təkcə əməlləri ilə, mübarizə üsulu ilə və qabiliyyəti ilə deyil, eləcə də zahiri görünüşü ilə, geyimləri ilə də bir-birlərindən fərqlənirlər: birinin qartalı var, qızıl kəmər taxıb, birisi qırmızı şalvarda gəzir və özünü bəyənir, bəzisi də qısa budlu, uzun baldırlı, at ağızlıdır, altmış öğəc dərisindən kürk geyinir, lakin topuqlarını örtməyir, altı öğəc dərisindən tikilmiş külah qoyur və qulaqlarını örtmür. Bığlarını ənsəsində yeddi yerdə düyünləyir və sair. Qısası, bəylərin bu müxtəlifliyi və rəngarəngliyi, oğuzların əxlaqi inamından və ənənəsindən tamamilə rüşeymlənən artıq möhkəm qanunləşmiş igid modelinə uyğun gəlmir və ya artıq halda az uyğun gəlir ki, qeyd etdiyim kimi, onlar bu qəhrəmanların sxematikliyini itirir və onların insani təbiiliyini irəli çəkir (K.D.Q., səh. 58, D.K.K., səh. 27-29; O.D.D.K.K. səh. 83-86).

Ümumiyyətlə, bu sadalamada əhatə olunan qəhrəmanların simalarının birgə mübaliğəli çalarların qamması ilə təsvir olunması təəccüblü deyildir. Çünki bu vasitə, demək olar ki, bütün xalqların folklorunda yayılıb və bir qayda olaraq, oxucuda, istərsə də dinləyicidə təəssüratın yaradılmasına və emosiyalı effektin oyadılmasına xidmət edir. Bu dəfə bizim üçün təhlil olunan eposda hansı əlamət – xüsusiyyətin irəli çəkilməsi diqqətə layiqdir: bu, ilk növbədə fiziki qüvvə, mübarizə həvəsi və qabiliyyəti, kafirlərin qanının tökülməsi, qalaların alınması, düşmənlərin qovulması və belə mühakimə edin, güclü bəylərin qızlarının qaçırılmasıdır. Elə burada qeyd etdiyim kimi, müxtəlif cür göstərilən qəhrəmanların geyiminə əhəmiyyət verilir: qızıl kəmərdən və sırğalardan başlamış, toğlu dərisindən hazırlanış kürklərə qədər. Eləcə də əsas vurğu qəhrəmanın fiziki zahiri görünüşünə və bünyəsinə edilir – qartala tay və onun bənzəri. Zira, bığlarının ənsəsində yeddi yerdə düyünlənməsi, eləcə də qəhrəmanın qeyri-adi gücünə, Dərbənd qapısının qoparılmasına, altmış min kafirin məhv edilməsinə, əlli yeddi qalanın kilidini açmasına və otuz yeddi qala-qəsrin sahibi olan bəylərin qızlarının qaçırılmasına və sair işarədir. Oğuz bəylərini altmış tutamlıq iri nizədən başqa müxtəlif rəngli bədəvi atları gözəlləşdirməlidir. Bu oğuz bəyləri müxtəlif boy-buxunlara malik olmasına baxmayaraq hərəkəti ilə, işi ilə və əməlləri ilə də fərqlənirlər: filankəs üç igid oğuzu atdan yerə saldırır, bəzisi yetmiş min kafirin qanını tökür ki, bu da təəccüblü olmamalıdır. Nəhayət, oğuz igidinin şücaəti iki şeylə bilinir: düşmənin öhdəsindən gəlməklə, onu məğlub etməklə və güclü bəylərin qızlarını qaçırtmaqla. Müəyyən olunduğu kimi, bu sonuncu qədim oğuzlarda bir növ dəyərləndirilirdi və igidlik kimi hesab olunurdu.

Elə burada oğuz qaydalarının ənənəsinə söykənən və onların həyat tərzinə çevrilən etik-estetik məcəllənin başlıca əsasnamələrini xatırlasaq yersiz olmaz:

1) Oğula igidlik və mətinlik xarakterini göstərməyincə ad qoymurdular. Adın qoyulması isə onun tam igid kimi tanınması demək idi.

2) Hər şeydən öncə oğulun valideynlərinə – ana və atasına böyük hörməti olmalıdır və onlara qarşı səmimi, çəkinəcəkli rəftarı olmalıdır.

3) Oğul atanın başını uca etmək üçün döyüşməlidir. Atanın adını şərəfləndirməyən doğulmasa yaxşıdır.

4) Oğul düşmənə qarşı qorxmadan mübarizə aparmalıdır. O, həyatı bahasına da olsa ata və qardaşını əsirlikdən və dardan qurtarmalıdır.

5) Ata ola bilsin ki, oğlunu qurban versin, amma oğulun atanı qurban verməyə haqqı yoxdur.

6) Həqiqi igid anasının sözünü yerə salmaz.

7) İgid oğul atasından süfrə açmağı öyrənməlidir. O, comərd, səxavətli olmalıdır: öz qənimətindən acların qarnını doyurmalı, çılpaqlara əyin-baş almalıdır.

8) Oğuzlar arasında beşikkərtmə yayılmışdı. Lakin qəhrəmanlıq eposuna uyğun olaraq, adaxlı axtaran igid ox atır və o, tale oxu düşdüyü yerdə könül həmdəmini axtarmalıdır (Adaxlı axtarmağın bu cür ənənəsi demək olar ki, bütün xalqların folklorunda yayılmışdır).

9) Lakin oğul adaxlısını valideynlərinə göstərməyincə onun bacasına yaxın gəlmir.

10) Oğuz igidinin daha bir müsbət xüsusiyyəti – o, öz əsir düşmüş dostlarını xilas etməyincə öz sevgilisinin istəyinin yerinə yetirilməsindən imtina edir. Yatanda da özü ilə nişanlısı arasına qılınc qoyur və bildirir: Onları xilas etməyincə səni xoşbəxt edə bilmərəm.

11) Oğuz igidinin həyat tərzi ovçuluq və ziyafət, yeyib-içmək, eyş-işrətdir ki, bu da çox hallarda həddini aşır və ona təhlükə yaradır.

12) Sosial differensiyalaşdırmaya baxmayaraq başlıcası, hər halda, sədaqətdir: adi çoban öz bəyinə səmimi qəlbdən sadiqdir. Lakin bu sonuncu onun fədakarlığını, səmimi sadiqliyini biabır edir və ona ləyaqətsizlik göstərir ki, bu da onu müsbət olaraq göstərmir. Kontrastlı qarşıdurma bu təhlil olunan eposda çobana qarşı oxucunu hüzn-rəğbətli əhval-ruhiyyədə edir, bu, qəhrəmanlıq eposunda xalq əhval-ruhiyyəsinin hökm sürdüyü faktını təstiqləyir və xalqın ruhu qalib gəlir ki, bu da təəccüblü deyildir.

13) Dədə Qorqudun oğuz tayfalarının güclülüyü məhz elə bu pilləli möhkəm əlaqələrə və sədaqətə əsaslanıb. Bütün tayfaların başçısı və bəyi xaqana sədaqətli və itaətkar olmalıdır. Lakin xaqana qarşı sadiqlik çat verən kimi buna görə igidi öldürəndə iç və dış oğuzlar arasında parçalanma baş verdi. Qazanın qalib gəlməsinə, xəyanətkar Uruzu qətlə yetirməsinə baxmayaraq, hər halda, oğuz dövlətinin qüdrəti sarsıldı və dağılmağa, parçalanmağa başladı.

Qədim oğuzların yaşadığı əxlaqi-etik ənənə həddindən artıq qısa olaraq bu cürdür. Bu ənənəyə bütün oğuz igidi ciddi şəkildə əməl edirdi. Lakin bu fani dünyanın yoldan azdırıcı tələsi dolu olduğundan oğuz igidləri də hərdənbir büdrəyirlər. Budur, elə götürək, yuxarıda gətirilən Uruzun xəyanətini və onun xain, müxənnət hərəkətini. Eləcə də elə burada Dirsə xana onun oğlu Buğacın baş kəsici hərəkətini təhrik edən paxıl igidlərin xəyanətkar davranışın, ataya oğulu qurban verdirdiklərini və öldürtdüklərini xatırlamalıyıq. Belə ki, heç də oğuz ənənələrini inkar deyil, eləcə də, ümumiyyətlə, qeyri-insani davranışdan da kənara çıxır. Lakin oğulun ataya rəva görməməsinə baxmayaraq, məhz elə bu, möhkəm bərqərar olan ənənədir. Atanın davranışı isə bizi necə təəccübləndirməməlidir, yenə də oğuz ənənəsinin pozulmasından irəli gəlir, xainlərin təhriki ilə o elə düşünür ki, onun oğlu kişilik məcəlləsini inkar edəndir. Qısası, ənənəni pozan, əxlaqsızlıq edən atanın əli ilə cəzalanır. Konkret halda atanın günahı odur ki, onu xainlərin xainliyi və yalanı əmin etdi, halbuki o, özünün yeganə oğlunu və ümidini qurban verir, o məhz elə oğuz ənənələrini və əxlaqını pozan şəxs kimi hesab edir.

Əsərdə ataya qarşı oğulun ədəbsiz, həyasız müraciətinə rast gəlirik. Uruz atasına belə müraciət edir: "Dəvəcə böyümişsən, köşəkcə aqlın yoq! Dəpəcə böyümişsən, darıca beynin yoq!.." (K.D.Q., səh. 89, D.K.K., səh. 60; O.D.D.K.K. səh. 100). Bu kobudluğa ata fikir vermir. Gülür və "Uruz xub söylədi, şəkər yedi" – deyir. Onların dialoqu bununla sona yetir ki, bu da oğuz etikasının baxış dairəsinə görə yolverilməzdir və qəbul edilməzdir. Lakin burada ata-oğulun təbii münasibətləri özünü büruzə verir ki, bu da etik çərçivələrinə sığmır. Halbuki oğuz igidlərinin həyatında təbii hadisə idi. Elə burada vurğulamalıyam ki, "Dədə Qorqud" əsərinin süjeti və semantik inkişafı tamamilə orta əsrlərin qəhrəmanlıq eposunun qanuniləşdirilmiş ümumi qaydasına aiddir, lakin həyat sayağı real hadisələri də əhatə edir ki, bu da tamamilə təbiidir, illah da ki, folklor əsərinə toxunan zaman.

Bu qəhrəmanlıq eposuna qatılan yumor epizodları da həmçinin həyat sayağı realları əks etdirir. Çəkilən səhnə öz zamanında məqbul və təsirli yumor ilədir ki, burada da Dəli Qarcar öz şıltaq tələbinə görə biralər otağına düşür, ac və susamış biralər onun bədəninə daraşanda Dəli Qarcar bağırtı və inilti ilə Dədə Qorquda üz tutur. O isə rahatca cavab verir: Oğul Qarcar, qarğayıb eləməyəsən, bu tapşırdığım şeydir, götür! Nə oldu, belə özünü itirdin? Köklərini seç, arığını qoy!.. Bu halda xeyir və şərin, ağ və qaranın kontrastı gülüş əhval-ruhiyyəsini yaradır.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən: **Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## GEDİŞ-GƏLİŞ

### 25. TRAMVAYLARDA ŞƏHƏR GƏZİNTİSİ



*(əvvəli ötən sayda)*

Niderlandın ictimai nəqliyyat sektorunda tramvayların xüsusi çəkisi olduqca qabarıq görünür. Bu ölkənin tramvaylarından bəhs etmədən öncə, sizinlə mənim aşırı dərəcədə bu nəqliyyat növünə bağlılığımdan bir-iki epizod danışmaq niyyətindəyəm. Bunu mənə qüsur tutmayacağınıza da əminəm. Elə bu ümidlə də sizi sovet dönəminin tramvaylarında qısa bir tarixi ekskursa dəvət edirəm.

Tramvayın necə ucuz bir nəqliyyat vasitəsi olduğunu sovet adamlarının hamısı yaxşı xatırlayır. Tiflisin, Bakının küçələrində hərəkət edən qırmızı, bir az kirli-paslı, yağlı-mazutlu tramvayları necə xatırlamayasan. Tramvayların zəng səsləri, relslər üzərində taqqıltı ilə hərəkəti adamı bir qədər xatirələrə aparır, ya da düşüncəsini nostalji hisslərə kökləyir. Bu ucuz, ekoloji cəhətdən təmiz, vətəndaşların aşağı təbəqəsi üçün sərfəli nəqliyyatın Tiflisdən, Bakıdan yoxa çıxarılmasının doğru-dürüst bir cavabı da yoxdur. Kiminsə axmaq ağlının, iddiasının, bəlkə də tamahının qurbanına çevrilmiş tramvay heç bir səbəb olmadan ictimai nəqliyyat növü kimi nəqliyyat sektorundan çıxarıldı. İndi hərdən-hərdən onun bərpası ilə bağlı fikirlər də səsləndirilir. Bərpanınsa necə böyük bir məbləğ tələb etdiyini də təsəvvür edə bilərik.

Sovet tramvaylarında 3 qəpiklik biletlə gəzdiyim günləri yaxşı xatırlayıram. Bakıda, Tiflisdə, Ulyanovskda 3 sovet qəpiyinə gedib-gəldiyim yerləri, bəzən məqsədsiz-filansız minib şəhəri dolaşdığımı da gizlətməyim. Cəmi 3 sovet qəpiyinə. Allah üçün, sovetin hər yamanlığını söylədiyimiz kimi, yaxşılıqlarını da deməliyik. Bu yaxşılıqlardan biri hər şeyin, o cümlədən də nəqliyyatda gediş haqqının az qala su qiymətinə olması idi. Şəhərdaxili nəqliyyatda gediş qiyməti tramvaylar üçün 3, trolleybuslar üçün 4 qəpik, metro və avtobuslar üçün 5 qəpik olduğu dönəm çox da uzaqda qalmayıb. Hələ bu ucuzluqda güzəştlərdən istifadə edib, pulsuz gedib-gələnlər də var idi.

İstanbulda gördüyüm modern, şüşələrinin genişliyi ilə diqqəti cəlb edən tramvayları unutmadığımı da qeyd edim. Bu vaxta qədər gördüyüm tramvaylar arasında İstanbul tramvaylarının daha gözəl, daha baxımlı olduğunu da demədən keçməyim.

İndisə söhbətimizin əvvəlinə qayıdıram. Niderland şəhərlərinin bəzəyi sayıla biləcək tramvaylar barədə söhbətimizi davam etdirək. Niderlandın əksər şəhərlərində, – əlbəttə ki, mənim gördüyüm şəhərlərdən söhbət gedir, – tramvay ictimai nəqliyyat sektorunun vazkeçilməz əsas elementlərindən biridir. Amsterdamda, Rotterdamda, Haaqada, Delftdə gördüyüm tramvaylar rəngarəngliyi ilə, səliqəsi ilə yadımda qalıb. Bir neçə dəfə Amsterdamda mindiyim tramvaylarda gediş haqqı çox bahadır, əslində Amsterdama kənardan gələnlər üçün baha görünür. Avropa ölkələrində qiymətlərin başqa ölkələrə nisbətən baha olması normaldır. Nədən ki, həyat səviyyəsi yüksəkdir, maaşlar vətəndaşların ürəyincədir, dövlətin vətəndaşlarına sosial qayğısı nəzərəçarpacaq dərəcədədir. O üzdən də 3 avro 20 sent pul ödəyib bilet almaq yerlilər üçün normal sayılır. Bunu gün ərzində tramvaylara minib-düşənlərin çoxluğu da sübut edir. 3 avro 20 sentə aldığın bilet şəhərin istənilən tramvay marşrutu üçün iki saat ərzində keçərlidir. Müəyyən məsafəni qət edib, yolunu digər marşrutda artıq yeni bilet almadan davam etdirə bilərsən. Gün ərzində daha çox tramvaydan istifadə edənlər 8 avroluq bilet alıb istənilən qədər ondan istifadə edə bilərlər.

Tramvayın orta qismində nəzarətçi-kassirin xüsusi köşəsi yerləşir. Onun bu köşəsi kiçik ofisi xatırladır. Kartla, nağd pulla bilet almaq istəyənlər ona müraciət edirlər. Onun vəzifəsi bununla da bitmir. O, qapının yanında quraşdırılmış, xüsusi gediş kartlarından istifadə edən sərnişinlərin qeydiyyatdan keçib-keçmədiyinə də nəzarət edir. Bilet almağı unudanlara bunu xatırlatmaq da onun vəzifə səlahiyyətinə daxildir. Onun ən ümdə vəzifələrindən biri də tramvaya minən sərnişinləri salamlayıb ağırlamaq, düşənləri isə xoş sözlə uğurlamaqdır. Bəzi nabələd sərnişinlərin verdiyi suallara cavab vermək də nəzarətçi-kassirin üzərinə düşür. Uzun iş günü ərzində minlərlə sərnişinlə maraqlanmaq, eyni sözləri dəfələrlə təkrarlamaq, dəfələrlə təxminən eyni suallara cavab vermək kimi bir iş kənardan baxanlar üçün asan görünsə də, axşama doğru bu adamların üzündən-gözündən süzülən yorğunluq əlamətləri, bu işin nə qədər bezikdirici, usandırıcı olduğunu xatırladır. Bütün bu işləri üzərinə düşən vəzifə borcu kimi yerinə yetirən nəzarətçilər istənilən sərnişini salamlamaqla yanaşı, onlara təbəssüm bəxş etməli olduqlarını yorğun olsalar belə, yaddan çıxarmırlar. Bu cür davranış qarşılıqlıdır və sərnişinlər də nəzarətçilərə eyni səmimiyyətlə cavab verirlər.

Şəhərin mərkəzi, gəzməli-görməli yerlərinin yaxınlığından keçən tramvaylar turistlərin ən çox istifadə etdikəri nəqliyyat növüdür. Şəhərin köhnə məhəllələrində hörümçək toru kimi bir-birinə qarışan tramvay xətləri ona əlavə klassik bir kolorit qazandırır. Bəzi yerlərdə eyni yolu paylaşan avtomobilləri, velosipedləri və tramvayları bir arada görmək də maraqlı əyləncə axtaran turistlər üçün vazkeçilməz bir mənzərə yaradır. Dayanacaqlarda hər marşrutun gedəcəyi yerlər barədə məlumat verən xəritələr isə tramvaydan istifadə olunmasını daha da asanlaşdırır, şəhərin qonaqları üçün bu nəqliyyatı daha əlçatan edir.

(davamı gələn sayda)

**Afiq MUXTAROĞLU**
Niderland

# GÜRCÜSTANDA QƏLƏBƏ GÜNÜNÜN TARİXİ DƏYİŞDİRİLƏ BİLƏR – MƏSƏLƏNİ PARLAMENT MÜZAKİRƏ EDƏCƏK

Dekabrın 5-i Səhiyyə komitəsi Qələbə Günü ilə bağlı qanun layihəsini müzakirə edib. Layihə faşizm üzərində qələbə günü olaraq 9 may tarixini deyil, 8 may tarixini nəzərdə tutur. Qanun layihəsinin müəllifləri Teona Akubardia və Armaz Axvledianidir.

Layihənin izahat kartında deyilir ki, Sovet İttifaqında əsası qoyulmuş ənənəyə görə Qələbə Gününü SSRİ dağıldıqdan sonra da Rusiya və digər keçmiş sovet ölkələri, eləcə də Gürcüstan mayın 9-da qeyd edir. Yalnız Baltikyanı ölkələr və Ukrayna istisnadır – bu ölkələrdə Qələbə Günü Böyük Britaniya, ABŞ və Avropadakı (Fransa, Almaniya, Çexiya və s.) kimi mayın 8-i qeyd olunur.

Tarixi faktdır ki, Almaniyanın kapitulyasiyası ilə bağlı protokola 1945-ci ilin 7 mayında Fransanın Reyms şəhərində qırmızı kərpicli texniki kollecin inzibati binasında, Mərkəzi Avropa vaxtı ilə saat 02:41-də Almaniya Silahlı Qüvvələri adından general Alfred Yodl (Almaniaynın hərbi işlərin planlaşdırılması və icra edilməsi üzrə ali orqan başçısı), ingilis-amerikan ordusu adından general Smitt, SSRİ tərəfdən general Susloparov, Fransa tərəfdən isə, müşahidəçi statusunda general Sevez imza atıblar. Bundan sonra Britaniyanın baş naziri Çörçill mayın 8-də radio vasitəsi ilə alman faşizmi üzərində qələbəni elan edib.

Reyms protokolu ilə bağlı maraqlı məqamlardan biri də odur ki, akta imza atan general Susloparov Moskvadan gecikmiş bir göstəriş alıb – aktı imzalamamaq göstərişi. Amma artıq gec olub. İosif Stalin Reyms protokoluna belə münasibət bildirib: “Reymsdə müttəfiq ölkələr kapitulyasiya aktına imza atıblar. Sözsüz ki, onu ləğv etmək olmaz. Amma Reyms protokolunu qəbul etmək də olmaz...”

Reyms protokolu imzalananda general Susloparov akta imza atarkən bir şərt irəli sürüb, istənilən müttəfiq ölkə tərəfindən daha bir kapitulyasiya aktı imzalana bilər. Tərəflər bu şərti qəbul ediblər. Elə bu şərt əsas götürülərək mayın 8-də Berlinin Karlhorst qəsəbəsində yerləşən hərbi məktəbin yeməkxanasında Vermaxtın sözsüz və tam kapitulyasiyası ilə bağlı növbəti akt imzalanıb. SSRİ tərəfdən akta marşal Georgi Jukov imza atıb. Akt Mərkəzi Avropa vaxtı ilə 22:43-də imzalanıb. Moskva vaxtı ilə isə artıq mayın 9-u saat 00:43 olub. Bax, elə bu səbəbdən də Qələbə Günü məhz bu tarixdən elan edilib.

Müharibə başa çatır. Berlinin kapitulyasiyasını təsdiq edən sənəd beş bənddən ibarətdir. 2-ci bənddə yazılıb ki: “Almaniya Ali Komandanlığı bütün alman hərbçilərinə, dəniz və hava qüvvələrinə, Almaniyanın nəzarət altında olan qüvvələrə dərhal sərəncam verəcək ki, Mərkəzi Avropa vaxtı ilə saat 23:01-də, 8 mayda fəal hərbi əməliyyatları dayandırsınlar və həmin vaxt tutduqları vəzifədə qalsınlar”.

Buradan irəli gələrək, qanun layihəsinin müəllifləri qeyd edirlər ki, “Gürcüstanın Avropa İttifaqına üzv olmağa tələsdiyi və sivil Qərbin tamhüquqlu üzvü olmaq istədiyi halda bu baxımdan Qərbin aparıcı ölkələrinə uyğunluq olmalıdır, faşizm üzərində qələbə Gürcüstanda da mayın 8-də qeyd olunmalıdır”.

Qeyd olunan məsələ Səhiyyə komitəsinin müzakirəsindən sonra razılıq verildiyi halda parlamentə təqdim olunacaq. Ola bilsin faşizm üzərində qələbə günü olaraq 9 may deyil, 8 may elan olunsun və məhz bu tarix bütün ictimai qurumlarda, həmçinin məktəb və bağçalarda istirahət günü olacaq.

*Mənbə: etaloni.ge*

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

15 DEKABR
2022-Cİ İL
№ 023 (170)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## "TÜRKÜN ŞANLI ZƏFƏRİ" ADLI TƏDBİR KEÇİRİLİB



Dekabrın 7-si Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində "Türkün şanlı zəfəri" adlı tədbir keçirilib. Tədbir "Gənclərin Töhfəsi İctimai Birliyi", "Azərbaycan-Türkiyə Qida Təhlükəsizliyi İctimai Birliyi" və "BEEZ" Uşaq Teatrının tərəfdaşlığı ilə "Şuşa ili" çərçivəsində baş tutub.

Tədbiri layihənin rəhbəri Məhsəti Hüseynova açaraq qonaqları salamlayıb və layihə haqqında məlumat verib. Sonra tədbir iştirakçılarına söz verilib, onlar da öz çıxışlarında bu cür tədbirlərin tez-tez keçirilməsinin əhəmiyyətindən danışıblar. Daha sonra "BEEZ" Uşaq Teatrının kollektivi şeirlər səsləndiriblər.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşı, Qardabani bələdiyyəsinin rəsmi şəxsləri, gənclər və maraqlananlar iştirak ediblər.

"BEEZ" Uşaq Teatrının bədii rəhbəri Binəli İslamoğlu tədbir çərçivəsində "Türkün şanlı zəfəri" adlı rəsm müsabiqəsinin də baş tutduğunu bildirib. Müsabiqəyə Gürcüstandan qoşulan gənclərin çəkdikləri rəsm əsərləri tədbirdə nümayiş etdirilib. Qaliblərin adları isə yaxın zamanda ictimaiyyətə açıqlanacaq.

B.İslamoğlunun sözlərinə görə, qaliblərin mükafatlandırılması mərasimi Azərbaycanın Şuşa şəhərində keçiriləcək. Birinci, ikinci və üçüncü yerin sahibləri Şuşaya səfər edəcəklər.

## GÜRCÜSTANDA RƏYİ SORUŞULANLAR TƏHSİLƏ 0,3 SAAT VAXT XƏRCLƏYİRLƏR




Gürcüstanın Milli Statistika Xidməti BMT-nin qadınlar təşkilatının (UN Women) maddi və texniki dəstəyi ilə 2020-2021-ci illərdə Gürcüstanda ilk dəfə vaxtdan istifadə ilə bağlı araşdırma aparıb. Araşdırmaya əsasən müəyyən olunub ki, əhali arasında özünə qulluq üçün gecəgündüz orta hesabla 11,7 saat vaxt sərf olunur, 0,3 saat isə təhsilə xərclənir.

***"Gürcüstan əhalisi təhsilə gündə orta hesabla 0,3 saat xərcləyir. Təhsilə qoşulmuş insanlar isə bu fəaliyyətə gündə orta hesabla 4,8 saat sərf edir. Bu göstərici qadınlar arasında 4,5 saat, kişilər arasında 4,7 saat təşkil edir. Qadınlarda və kişilərdə təhsilə xərclənmiş orta vaxt yaşın artması ilə yanaşı ciddi şəkildə azalır",*** – araşdırmada yazılıb.

Araşdırmanın nəticələrinə görə, əhali gecəgündüz orta hesabla 11,7 saat özünə qulluq, 4,2 saat mədəniyyət, istirahət, idman və media ilə əlaqədar fəaliyyətlərə xərcləyir; 2,6 saat işlə təmin edilmə və onunla əlaqədar fəaliyyətlərə, 2,1 saat ev təsərrüfatı və ailə üzvlərinə göstərilən ödənişsiz ailə xidmətinə sərf edilir; 1,4 saat sosiallaşma, ünsiyyət, icma və dini fəaliyyətlərdə iştiraka, 0,9 saat şəxsi istifadə üçün məhsulların alınmasına, 0,6 saat ev təsərrüfatı və ailə üzvlərinə göstərilmiş ödənişsiz qayğı xidmətinə, 0,3 saat təhsilə, 0,1 saat isə təcrübəyə, könüllü və başqa növ ödənişsiz əməyə sərf edilir.

*Araşdırma üçün ölkə miqyasında təsadüfi prinsiplə 3 680 təsərrüfat seçilib. Araşdırmada 15 yaş və yuxarı olan şəxslər iştirak ediblər. Onlar vaxtdan istifadə gündəliyinə 10 dəqiqəlik intervalla həyata keçirdikləri fəaliyyətləri əvvəlcədən müəyyən edilmiş iki gün ərzində yazıblar.*

*Mənbə: etaloni.ge*

## GÜRCÜSTANDA MƏKTƏBLƏRİN SAYI AZALIB



Milli Statistika Xidmətinin yaydığı rəsmi məlumata görə, Gürcüstanda məktəblərin sayı ildən ilə azalır, şagirdlərin sayı isə artır.

2022-2023-cü tədris ilinin başlanğıcında Gürcüstanda ümumilikdə 2 302 məktəb olub. Onlardan 2 086-sı ictimai məktəb, 216-sı isə özəl məktəbdir. Ötən tədris ili ilə müqayisədə ölkədə 6 məktəb fəaliyyətini dayandırıb. Həmin dövrdə məktəblərdə ümumilikdə 633,3 min şagird təhsil alırdı, bu da ötən ilin göstəricilərindən 1,4 faiz çoxdur.

Bölgələrə əsasən ən çox məktəb (17,1 %) İmeretidə fəaliyyət göstərir, ən çox şagird isə (35,4 %) Tbilisidə təhsil alır.

Ötən illərin göstəricilərinə əsasən, 2018-2019-cu tədris ilində 2 313 məktəb və 584,4 min şagird; 2020-2021-ci ildə 2 309 məktəb və 609,1 min şagird; 2021-2022-ci tədris ilində 2 308 məktəb və 624,5 min şagird qeydiyyata alınmışdır.

*Mənbə: etaloni.ge*

## KUTAİSİDƏKİ PARLAMENT BİNASINDA TEXNOLOGİYA MƏRKƏZİ YARADILACAQ



Gürcüstanın Kutaisi şəhərindəki keçmiş parlament binası İT (informasiya texnologiyaları) habına çevriləcək. Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili hökumətin iclasında deyib. O, hazırda fəaliyyət göstərməyən binanın texnoloji mərkəzə çevrilməsi məqsədilə İsrail şirkəti ilə danışıqların davam etdiyini qeyd edib. Baş nazir məqsədin İT sektorunun inkişafını təşviq etmək olduğunu vurğulayıb.

Qeyd edək ki, Gürcüstanın hazırda həbsdə olan üçüncü Prezidenti Mixeil Saakaşvilinin hakimiyyətinin sonuncu ilində - 2012-ci ildə istifadəyə verilmiş parlament binası 2019-cu ilədək fəaliyyət göstərib. 2012-ci ildə "Gürcü Arzusu" partiyası hakimiyyətə gəldikdən sonra parlamentin yenidən Tbilisiyə qaytarılması istiqamətində fəaliyyətə başlayıb. 2019-cu ildə parlament yenidən paytaxt Tbilisiyə köçürülüb və Kutaisidəki bina ölkənin Daxili İşlər Nazirliyinin tabeliyinə verilib.

## GÜRCÜSTAN UKRAYNAYA GENERATORLAR GÖNDƏRİR



Gürcüstanın hökumət administrasiyasının yaydığı məlumata əsasən, Gürcüstan Ukraynaya elektrik enerjisi generatorları göndərəcək.

Bildirilib ki, məsələnin ən qısa zamanda həll edilməsi üçün Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinə müvafiq göstəriş verilib.

Hökumət administrasiyasının rəhbəri Revaz Cavelidze qeyd edib ki, Gürcüstan Ukraynaya ən çox humanitar yardım göstərən ölkədir və hazırda 26 min Ukrayna vətəndaşı Gürcüstan ərazisindədir.

R.Cavelidze əlavə edib ki, Gürcüstan məktəblərində hazırda 2 345 ukraynalı uşaq təhsil alır və Gürcüstanın Ukrayna vətəndaşlarına göstərdiyi yardım təxminən 32 milyon lari təşkil edir.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.